Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın ən böyük insan haqları layihəsi - Qərbi azərbaycanlıların qayıdışı...

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Müasir dünyanın ən aktual problemlərindən biri insan hüquqlarıdır. Bu ideyanın tarixi kökləri təxminən eramızdan əvvəl 6-5-ci əsrlərə gedib çıxır. İlk olaraq o dövrdə Afina və Romada bu ideyalar meydana gəlməyə başlayıb. Bu fikirlər həmin dövrlərdə insan hüquqları adlanmasa da, mahiyyət etibarilə indiki insan hüquqlarının ilk rüşeymləri sayıla bilər.**




Müəyyən zaman keçdikdən sonra, cəmiyyət inkişaf etdikcə insanlar öz hüquqları uğrunda mübarizə aparmağa başladılar. Məsələn, 1215-ci ildə İngiltərədə dünya tarixində insan hüquqlarına dair ilk sənəd olan "Böyük Azadlıqlar Xartiyası"nın qəbul olunması da bu mübarizənin nəticəsidir ki, bu gün də öz əhəmiyyətini itirməyib. Həmin sənədin ən böyük əhəmiyyəti ondan ibarət idi ki, dünya tarixində ilk dəfə olaraq, kral öz hakimiyyətini feodalların xeyrinə məhdudlaşdırıb.

**İrqindən, dərisinin rəngindən, cinsindən, dilindən asılı olmayaraq hamı bərabərdir**

Məlum məsələdir ki, 20-ci əsin ortalarına kimi insan hüquqlarını bütün dünya ölkələri qəbul etmirdi. Bu yolda ilk addım BMT tərəfindən atıldı. Belə ki, 1948-ci il aprelin 10-da BMT-nin Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi. Bəyannamədə göstərilirdi ki, irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, əqidəsindən, siyasi mənsubiyyətindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, bəyannamədə göstərilən hüquqlar bütün insanlara aiddir. Beynəlxalq aləmdə insan haqları BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi ilə qanuniləşdirilib. İnsan haqları bir çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun şəkildə belə ifadə olunur: "Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin edilmiş insan haqlarına və azad olmaq hüququna malikdir". Sevindirici haldır ki, bugünkü inkişafı ilə bölgədə və dünyada söz sahibinə çevrilən Azərbaycanda insan hüquqları sahəsində strateji əhəmiyyətli sənədlərin təsdiqi, bir sıra uğurlu islahatların aparılması insan hüquqlarının müdafiəsi baxımından mühüm təcrübə formalaşdırmasına imkan yaradıb. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Dünya Birliyinin tam hüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul etməklə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib.

**Qərbi Azərbaycan mövzusundan ermənilər bərk narahatdır**

Məlum olduğu kimi, Qərbi Azərbaycan mövzusu gündəmə gələndən ermənilər bundan bərk narahatdırlar. Qərbi Azərbaycan İcmasının yaranması, aktivləşməsi, onun Azərbaycanda təşkilatlanması, böyük ofisin açılması, Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun yaradılması, əslən Qərbi Azərbaycandan olan deputatların toparlanması qarşı tərəfin yuxusuna haram qatıb. Qərbi Azərbaycan məsələsi ilə bağlı BMT-yə müxtəlif sənədlər təqdim edilib. Ermənistanda bütün bunları isteriya ilə qarsalayırlar. İddia edirlər ki, guya Azərbaycan bu dövlətə qarşı ərazi iddiası ilə çıxış edir. Halbuki, bizim də ən böyük arqumentimiz odur ki, Qərbi Azərbaycan mövzusu ərazi mübahisəsi deyil. Bu, insan haqları, hüquqları məsələsidir. Qərbi Azərbaycandan olan soydaşlarımızın yaşamaq hüququ, öz vətənlərinə qayıtmaq, ata-baba torpaqlarına bağlanmaq hüququ pozulub. Bir sözlə, bu, insan hüquqları məsələsidir, ərazi məsələsi deyil.

**Məsələ ərazi deyil, hüquq məsələsidir**

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən şair-publisist, Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalı hesab edir ki, Qərbi Azərbaycan mövzusunun son illərdə yenidən gündəmə gəlməsi, ictimai-siyasi və mədəni diskursa daxil edilməsi Azərbaycanın ictimai-siyasi həyatında və beynəlxalq fəaliyyətində diqqətəlayiq istiqamətlərdən biridir: "Bu məsələnin yenilənməsi, Qərbi Azərbaycan İcmasının formalaşması, təşkilatlanması, qərargahının açılması və Milli Məclisdə Təşəbbüs Qrupunun yaradılması təkcə simvolik deyil, həm də strateji bir gedişdir. Ermənistan tərəfinin narahatlığı, bu prosesi "ərazi iddiası" kimi təqdim etməyə çalışması isə gözlənilən və siyasi manipulyasiya xarakteri daşıyan yanaşmadır. Halbuki Azərbaycan bu məsələdə açıq şəkildə bildirir ki, Qərbi Azərbaycan məsələsi ərazi iddiası deyil, insan hüquqları kontekstində yanaşılan məsələdir. Burada söhbət, keçmişdə zorla deportasiya edilmiş, ata-baba yurdlarından didərgin salınmış insanların - Qərbi azərbaycanlıların öz doğma torpaqlarına dinc yolla, beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə ləyaqətli qayıtmaq hüququndan gedir. Bu baxımdan Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara, o cümlədən BMT-yə müraciətləri də tamamilə hüquqi və legitim çərçivədə aparılır. Qərbi azərbaycanlıların hüquqları ilə bağlı sənədlərin təqdim olunması, bu məsələnin beynəlxalq gündəmdə insan haqları kontekstində qabardılması Azərbaycanın mövqeyini həm əxlaqi, həm də hüquqi baxımdan gücləndirir. Qərbi Azərbaycan mövzusunun əsas gücü də burdadır: Azərbaycan tərəfi bu məsələni etnik revanşizmin yox, hüquqi və humanitar əsasların prizmasından təqdim edir. Bu isə dünya ictimaiyyətinin anlayış və dəstəyini qazanmaq üçün daha əlverişli bir yanaşmadır. Nəticə olaraq, Ermənistanın isterik reaksiyaları mövzunun özəyini dəyişmir. Məsələ ərazi deyil, hüquq məsələsidir. Və hüququn yanında olmaq Azərbaycanın haqlı mövqeyinin əsas sütunudur. Əlbəttə, biz Qərbi Azərbaycan mövzusunda ona görə ürəklə danışırıq ki, bölgədə yeni gerçəklik yaratmışıq. O cümlədən biz haqlı tərəfik".

*Vidadi ORDAHALLI*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**